RAST MÜZİKOLOJİ DERGİSİ
Uluslararası Müzikoloji Dergisi
www.rastmd.com

Doi:10.12975/rastmd.2015.03.02.00054



# SABİR ƏLİYEV "MƏKTƏB"İNİN LAYIQLI DAVAMÇISI

*Tahirə Mustafayeva*[1]

**ÖZET**

Məqalədə Sabir Əliyev məktəbinin layiqli davamçısı Əməkdar İncəsənət xadimi, professor, metodist, ifaçılıq fakültəsinin dekanı Nəzmiyyə xanım Abbaszadənin geniş yaradıcılıq fəaliyyəti əks edilmişdir. Burada onun solist, ansamblçı, musiqili ictimaiyyətdə təşkilatçı kimi nailiyyətləri açıqlanmışdır və milli ifaçılıq sənətindəki əhəmiyyəti və rolu şərh edilmişdir.

**Anahtar Kelimeler:** Sabir Əliyev məktəbi, milli ifaçılıq sənəti, Şərqdə ilk qadın violonçel ifaçısı.

# A WORTHY SUCCESSOR TO THE "SCHOOL" SABIR ALIYEV

**ABSTRACT**

The article has been reflected wide creative activity a worthy successor to the school Sabir Aliyev Honored activist art, professor, methodist, executive dean of the faculty Ms. Nazmiyya Abbaszadeh. This shows her achievements as a soloist, ensemblist, the organizer community of music and it was interpreted significance and role execution of the national art.

**Keywords:** the school of Sabir Aliyev, national performing art, the first woman cellist in the East.

# ДОСТОЙНАЯ ПРЕЕМНИЦА "ШКОЛ"Ы САБИРА АЛИЕВА

**РЕЗЮМЕ**

В статье было отражена широкая творческая деятельность достойной преемницы школы Сабира Алиева Заслуженная деятельница искусство, профессорща, методистка, декан исполнительного факультета Госпожы Назмия Аббасзаде. Здесь показано её достижении как солистка, ансамблистка, организаторша сообщества музыки и было истолковано значение и роль национальный исполнение искусства.

**Ключевые слова**: школа Сабира Алиева, национальное исполнительское искусство, первая женщина виолончелистка на Востоке.

## GİRİŞ

Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi, professor Nəzmiyyə xanım Abbaszadə müasir violonçel ifaçılıq məktəbinin ən parlaq simalarından biri olub, öz geniş yaradıcılığı ilə milli klassik musiqi mədəniyyətimizin tərəqqisi və zənginləşməsində müstəsna rol oynayan şəxsiyyətlərdəndir. Uzun illərdir ki, o, fəaliyyətində mühüm yer tutan ifaçılıqla yanaşı fədakarcasına çalışan müəllim kimi çıxış edir. Bu baxımdan görkəmli

---

[1] *Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının doktorantı Sabir Əliyev "məktəb"inin layiqli davamçısı, Əlipaşa qızı.*

musiqiçi professional solist və ansamblçı olmaqla yanaşı, həm də müəllim kimi hər zaman yüksək peşəkarlığını qabarıq şəkildə nümayiş etdirmişdir. Nəzmiyyə xanımın uşaqlıq illəri o dövrə təsadüf edir ki, gənc nəsli harmonik şəkildə inkişaf etdirmək, ona hər tərəfli bilik vermək və eyni zamanda musiqiyə cəlb etmək bir növ həyat tərzinin təzahürü idi. N.Abbaszadə ilə aparılan söhbət əsasında o, uşaqlıq illərini belə xatırlayır: "Bizim evimizdə həmişə musiqi səslənirdi. Atam skripkada çox gözəl çalırdı. Keçən əsrin 30-cu illərində görkəmli bəstəkarımız Ü.Hacıbəyli Azərbaycan Dövlət Türk Musiqi Texnikumununu yaratdı. 1925-ci ildə M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının binasında texnikum tələbələrininin səyi nəticəsində dahi bəstəkarın "Arşın mal alan" musiqili komediyası səhnəyə qoyuldu. Orkestrin tərkibində skripkalardan biri kimi atam M.Sultanzadə də vardı. O, skripkaçı, pedaqoq M.İ.Paltsevin sinfində təhsil alırdı və texnikumun qabaqcıl tələbələrindən biri idi. Tələbə kvartetində Əşrəf Həsənzadə, Ələkbər Daşdəmirov ilə birgə çalırdı. Harmoniya fənnindən ona Üzeyir bəyin özü dərs deyirdi. Atam eyni zamanda Nərimanov adına texnikumun mühəndis üzrə tələbəsi idi və bu peşənin ardınca da getdi. O, skripkada çox gözəl muğam ifa edirdi. Evdə də atam tez-tez skripkada çalırdı, özünün yayı olmadığından mənim yayımdan istifadə edirdi.

Gənc musiqiçi ilk təhsilini Azərbaycan Dövlət Konservatoriyasının nəzdində mərkəzi uşaq musiqi məktəbində (indiki Bülbül adına orta ixtisas musiqi məktəbi) violonçel ixtisası üzrə əvvəl Fərhəng Quluzadənin, sonra isə Tatyana Olisovanın sinfində təhsil almışdır. O dövrdə (1937-1938-ci illərdə məktəb yaradılıb və Kövkəb xanım 1951-ci ci ilə qədər məktəbin direktor vəzifəsində çalışmışdır.) məktəbin direktoru Kövkəb xanım Səfərəliyeva idi. O, ümumtəhsil prosesinin inkişafında əhəmiyyətli rol oynayaraq hər bir şagirdin fəaliyyətinə fərdi yanaşardı. N.Abbaszadə Kövkəb xanım haqqında belə fikirlər irəli sürüb: "Kövkəb xanım məktəbə sənədləri təqdim edən hər bir şagirdi şəxsən yoxlayırdı. İndiyə kimi yadımdadır ki, anam məni onun yanına apardı. Kövkəb xanım sənədlərimi violonçel sinfinə verməyi təklif etdi. Anam qəti etiraz edirdi, o məni pianoçu görmək istəyirdi. Kövkəb xanım anama söylədi ki, sizin qızınız gələcəkdə ilk Azərbaycanlı qadın violonçel ifaçısı olacaq. Əlbəttə ki, Kövkəb xanımın söylədikləri gerçək oldu. Nəzmiyyə xanım nəinki Azərbaycanda, Şərqdə ilk qadın violonçel ifaçısı olmuşdur. Musiqiçinin keçdiyi həyat və yaradıcılıq yolu ölkəmizdə, o cümlədən onun musiqi həyatında baş verən proseslərlə sıx bağlı olub. Bununla bilavasitə əlaqəli olan Nəzmiyyə xanımın Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında oxuduğu illərini belə xatırlatmaq istərdik.

Görkəmli musiqiçinin yaradıcılıq mərhələsinin keçən əsrin 60-cı illərə təsadüf etməsi olduqca önəmlidir. Qeyd etdiyimiz bu illər Azərbaycan musiqi tarixində çox əlamətdar dövr kimi qiymətləndirilir və musiqimizdə, daha doğrusu bəstəkar musiqisində ciddi üslub axtarışları ilə, bir çox yeniliklərlə səciyyələnir. Milli klassik musiqimizin təkamül prosesinin inkişafında mühüm əhəmiyyət kəsb edən korifey bəstəkar Qara Qarayev və onun tərəfdarları, ilk növbədə artıq sözünü deyən və təzə-təzə sənəd yoluna qədəm qoyan tələbələri çox zəngin və maraqlı yaradıcılıq prosesinə cəlb etmiş, təbii ki, iştirakçılar yeni yaranan əsərlərlə tanış olaraq musiqimizdə baş verən yenilikləri izləmiş və dərk edərək onlar üçün həm mənalı, həm də faydalı olmuşdur. Digər tərəfdən 60-70-ci illər Şərqin ilk konservatoriyası üçün də olduqda səciyyəvi dövr idi. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının tarixi özü-özlüyündə çox maraqlıdır və burada müxtəlif yaradıcı insanların adlarını, yadda qalan hadisələri, əldə olunan nailiyyətləri qeyd etmək olar. Ümumiyyətlə, bu ali tədris ocağı haqda tədqiqat işi aparmaqla onu vurğulamaq istərdik ki, XX əsrin 60-70-ci illəri tarixdə qızıl dövr kimi qiymətləndirilir. Konservatoriyada çalışan bu

sahədə istedadlı professor və müəllimlərlə yanaşı, yeni nəsil gənc musiqiçilər təhsil alırdı ki, onların bir nümayəndəsi kimi Nəzmiyyə xanımı göstərmək olar. N.Abbaszadənin hər tərəfli inkişaf etməsində, peşəkar ifaçı kimi formalaşmasında sözsüz ki, konservatoriyada oxuduğu illərin rolu və əhəmiyyəti vacib və mühümdür. Burada gənc musiqiçinin yaradıcılığında onun müəllimi olan milli violonçel ifaçılıq sənətinin banisi Sabir Əliyevin xidmətləri xüsusi olaraq qeyd olunmalıdır. Milli violonçel ifaçılıq məktəbinin görkəmli nümayəndəsi olan bu şəxsiyyət böyük fitri istedada malik idi. Keçən əsrin 50-ci illərin əvvəllərində musiqimizə daxil olan S.Əliyev ömrünün sonuna qədər çox parlaq yaradıcılıq fəaliyyətini nümayiş etdirib. Onu demək lazımdır ki, uzun müddət Azərbaycanda violonçel üçün yazılan bütün əsərlərin ifaçısı Sabir Əliyev olmuşdur. Musiqiçinin ifaçılıq sənətini qiymətləndirməklə yanaşı, biz eyni zamanda onun müəllimlik fəaliyyətini də vurğulamaq istərdik.

Məlumdur ki, peşəkar ifaçı və görkəmli pedaqoq çox zaman üst-üstə düşmür. Musiqiçi parlaq ifaçı ola bilər, lakin bir müəllim kimi özünü göstərə bilmir. Söhbət iki müxtəlif peşədən gedir və nadir hallarda bu iki peşə üzvi surətdə birləşir. Sabir müəllim bunu nəinki bacarırdı, o, öz işinə fədakarlıqla yanaşırdı, musiqinin sirrlərini tələbələrinə aşılamağa çalışırdı. Odur ki, Nəzmiyyə xanımın həyatında Sabir Əliyevin rolu və əməyi əvəzolunmazdır. Bildiyimiz kimi, respublikamızda fəaliyyət göstərən və tanınan violonçel ixtisası üzrə musiqiçilər onun tələbələridir. Məhz Nəzmiyyə xanım bu tələbələrin ön sırasında da seçilənlərdən olub. O, şəxsi söhbətində belə bir fikir söyləmişdir: "Həyatı boyunca mənim müəllimlərim peşəkar musiqiçi və böyük şəxsiyyət olublar. Konservatoriyada violonçel ixtisası üzrə professor Sabir Əliyevin sinfində təhsil almışam. Sabir müəllim Azərbaycan violonçel ifaçılığı məktəbini yaradan yüksək professional musiqiçidir. Onun Azərbaycan musiqi sənətində rolu, yaratdığı məktəb haqda yazılıb və yazılacaq. Mən oxuduğum dövrdə Rasim Abdullayev və Yuri Abdullayev ifaçılıq fəaliyyəti ilə məşğul olublarsa, mən Sabir müəllimin pedaqoji fəaliyyətinin davamçısı olmuşam." Təbii ki, müəllim və tələbə münasibətləri olduqca maraqlı məsələdir və məqalə daxilində onu açmaq çətindir. Bununla bağlı yalnız onu qeyd etmək istərdik ki, Nəzmiyyə xanım böyük müəlliminə hər zaman ehtiramını bildirərək yaradıcılıq ənənələrinin davamçısı kimi milli ifaçılıq incənətinə daxil edilmişdir. N.Abbaszadənin fəaliyyətində özünün büruzə verən ifaçılıq, ansamblçı və müəllimlik pedaqoji istiqamətlərinin mövcudluğu da S.Əliyevdən gələn ənənədir. Ümumiyyətlə, ali təhsil ocağında məlum olan və bu gün də öz dəyərini və ənənələrini qorunub saxlanması prosesi olduqca vacib və təqdirə layiqdir. Nəzmiyyə xanımın bu yaradıcılıq yoluna yönəlməsi, məlum olan mənəvi dəyərləri yaşatması və inkişaf etdirməsi hal-hazırda bu sənətin tərəqqisinə gətirib çıxarıb.

Nəzmiyyə xanımın yaradıcılıq fəaliyyəti son dərəcə rəngarəngdir. O, solo ifaçılıqla yanaşı məşhur qadın musiqiçilərindən ibarət kvartetin təşəbbüskarı və solisti olmuşdur. Ansambl ifaçılıq sənətinin özünəməxsus sahəsidir və ən gözəl ifaçılar ansambl daxilində tərkibindən asılı olmayaraq çıxış etmirlər.

Kollektiv ilə ifa olunan musiqini dinləmək daima böyük marağa səbəb olur və hər bir əsəri konsert səhnəsinə çıxartmaq üçün çox böyük zəhmət tələb edir. Burada ansamblı təşkil edən musiqiçilərin yaradıcılıq potensialının eyni səviyyədə olması, ifa olunan əsərə bir mövqedən yanaşması və s. məsələlərin həlli nəticəsində əsl dinləyicini qane edən ifa alınır. Nəzmiyyə xanımın çalışdığı kvartetdə məntiqlə bir-birini anlayan peşəkarlar birləşmişdi. Dörd xanım, dörd ifaçı bunlardır: T.Əliyeva - I violina, X.Rəhimova - II violina, S.Seyidova – viola və N.Abbaszadə - violonçel. Kvartetin çıxışları böyük rəğbətlə qarşılanırdı. Yaradıcı kollektivin

repertuarı zəngin idi. Ümumiyyətlə, onların fəaliyyəti çox yüksək professionallığı və bədii zövqü ilə seçilirdi. Kvartetin rəhbəri professor Rəşid Seyidzadə ansamblın daha da surətlə inkişaf etməsinə zəmin yaradırdı. Alətin spesifik xüsusiyyətlərinə dərindən bələd olan kollektiv ifaları ilə yüksək professionalizmlərini bir daha da nümayiş etdirirdilər. O zaman Azərbaycan Dövlət Konservatoriyanın rektoru görkəmli bəstəkar Cövdət Hacıyev də kvartetin fəaliyyətinə şəxsən özü nəzarət edirdi və onun səyi nəticəsində ansambl P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında tanınmış Bethoven kvartetinin üzvü, məşhur viola ifaçısı V.V.Borisovski tərəfindən iki dəfə məsləhət saatı almışlar.

1969-cu ildə Moskva şəhərində uğurlu dinləyişdən sonra kvartet böyük müvəffəqiyyətlə aspiranturaya qəbul oldu. İmtahandan sonra V.V.Borisovski heyrətlənərək demişdir: "Şərq qadınlarının çadrada gəzdiyi şəraitdə sizin respublikada azərbaycanlı xanımların avropa simli alətlərində, xüsusilə violonçel kimi alətdə çalması nə dərəcədə ağlasığmaz bir işdir." 1970-1973-cü illər ərzində P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında assistent-stajorluq üzrə təhsilini bitirib Bakıya qayıdan Abbaszadə "simli alətlər" kafedrasında çalışır və konservatoriyanın nəinki musiqili, həm də ictimai həyatında fəal iştirak edir. Məsələn, tələbə elmi cəmiyyətin rəhbəri və kafedranın metodiki şurasının sədri seçilir. Hal-hazırda Nəzmiyyə xanımın bu günkü fəaliyyəti birbaşa müəllimliklə və təşkilati işlərlə bağlıdır. Konservatoriyanı bitirdikdən sonra o, burada müəllim kimi çalışır. Onu da deməliyik ki, bu fəaliyyət də geniş xarakter daşıyır. Bu məqamda xüsusilə kvartet sinfində çox böyük diqqət tələb edən işi göstərmək olar. Bununla yanaşı Nəzmiyyə xanımın violonçel üzrə ixtisas sinfində dərs aparmasını da qeyd etməliyik. Müəllimlik böyük fədakarlıq tələb edir. N.Abbaszadənin peşəkarlığı, böyük təcrübəyə malik olması onun fəaliyyətinin bu hissəsinin uğurla istiqamətə yönəlməsindən xəbər verir.

İfaçı nəslinin yetişməsində N.Abbaszadənin rolu mühümdür. O, həm violonçel ixtisası, həm də kvartet fənni üzrə Bakı Musiqi Akademiyasında əlli ilə yaxındır ki, mütəxəssislərin təkmilləşməsində, sənətlərinin tərəqqisində əhəmiyyətli rol oynamışdır. Məsələn, kvartet və ixtisas fənnləri üzrə Nəzmiyyə xanım SSRİ Xalq artisti Fidan Qasımova, Qara Qarayev adına Azərbaycan Dövlət Kamera orkestrinin dirijoru və rəhbəri Azərbaycan Respublikasının Xalq artisti Teymur Göyçayev, Azərbaycan Respublikasının Xalq artisti professor Şəhla İbrahimova, Azərbaycan Respublikasının Xalq artisti Uran Seyidov, Əməkdar artist Töhfə Babayeva, Sənətşünaslıq üzrə fəlsəfə doktoru professor Hökümə Əliyeva, "Yeni adlar" fondunun təqaüdçüləri Ruslan Biryukov, Dinarə Abdullayeva, Orxan Hüseynov, Aşqabadda keçirilən beynəlxalq müsabiqənin diplomantı, hazırda Türkiyənin Adana Dövlət Kamera orkestri violonçel qrupunun konsertmeysteri İlahə Əliyeva, Respublika müsabiqələri lauretatı Jalə Əliyeva, Asim Xəlilov, Murad İbrahimov, Tahirə Mustafayeva və s. onun yetirmələridir. Azərbaycanın bu və ya digər musiqiçiləri (N.Abbaszadənin yetirmələri) milli ifaçılıq sənətimizi nəinki respublikamızda, həm də xaricdə ləyaqət və şərəflə təmsil edirlər. Nəzmiyyə xanımın pedaqoji fəaliyyətinin ən kiçik nümayəndəsi sayılan Q.Qarayev adına Bakı Mərkəzi İncəsənət məktəbinin 11-ci sinif şagirdi Respublika və beynəlxalq müsabiqələr laureatı Orxan Hüseynovdur. Respublikamızda və ölkəmizdən kənarda - Gürcüstanın Tiflis, Rusiyanın Çelyabinsk və Samara şəhərlərində keçirilən musiqi tədbirlərində rəngarəng violonçel musiqisi proqramları ilə çıxış edərək öz ifası ilə dinləyicilərin dərin rəğbətini qazanmış, dəfələrlə respublika və beynəlxalq müsabiqələr laureatı, İ.N.Voronova adına "Novıye imena" beynəlxalq fondunun təqaüdçüsü, klassik violonçel musiqisinin Azərbaycan təmsilçisi missiyasını üzərinə götürmüşdür.

Violonçel ifaçılığının sirrlərinə dərindən bələd olmaq üçün bütün mehrini bu alətə salmış və işində müntəzəm və ardıcıl olan, onun ecaskar səsini dinləyiciyə çatdırmaq üçün böyük əzmlə çalışan gənc istedadlı musiqiçi ilk dəfə 9 yaşında ikən M.Rostropoviç adına "Gənc ifaçıların I Bakı müsabiqəsi"ndə iştirak edərək II dərəcəli diplomla, 2010-cu ilin aprel ayında Bakı şəhərində keçirilən "N.Əliverdibəyov adına gənc ifaçıların V Ümumşəhər" və "Respublika UMİM şagirdlərinin simli alətlər üzrə II Respublika musabiqələrində" qatılmaqla növbəti dəfə özünün musiqi bacarığı və istedadını nümayiş etdirməklə hər iki müsabiqədə I yer, I dərəcəli diplom və pul mükafatı ilə təltif edilmişdir. Orxan Hüseynov 2012-ci ilin aprel ayında Bakı şəhərində ISESCO və Azərbaycan Respublikası Gənclər və İdman nazirliyinin dəstəyi ilə təşkil edilmiş "İslam Dünyası gənclərinin (20 yaşa qədər) klassik musiqi ifaçılarının I, II, III Beynəlxalq festival-müsabiqələri"ndə uyğun olaraq ən yaxşı gənc ifaçı diplomu, I yer və qiymətli hədiyyələrlə təltif edilmiş, 2013-cü ildə dahi Azərbaycan bəstəkarı Q.Qarayevin 95 illiyinə həsr olunmuş Q.Qarayev adına "Təhlil və ifa edir" gənc musiqiçilər II Respublika elmi-ifaçılıq müsabiqəsində iştirak etməklə laureat diplomu və pul mükafatına layiq görülmüşdür. N.Abbaszadə məktəbinin davamçısı olan O.Hüseynov 2014-cü ilin oktyabr ayında Bakı şəhərində Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin dəstəyi ilə Rusiya Federasiyası Moskva şəhər hakimiyyəti Moskva şəhər xarici iqtisadi və beynəlxalq əlaqələr departamentinin İ.N.Voronova adına "Yeni adlar" beynəlxalq fondunun təşkilatçılığı və birbaşa rəhbərliyi altında 28 məktəb arasında keçirilmiş müsabiqə yolu ilə seçim nəticəsində ən istedadlı şagirdlərin müəyyən edilməsi hadisəsi oldu. Orxan Moskvadan gələn musiqiçilər qarşısında D.Popperin "Tarantella" əsəri ilə çıxış edərək parlaq çalğı, virtuoz ifa tərzi, eləcədə gözəl səhnə və ifa mədəniyyəti göstərməklə bir daha istedad və ifaçılıq məharətini nümayiş etdirdi. Tədbirin təşkilatçıları tərəfindən İ.N.Voronova adına "Yeni adlar" beynəlxalq fondunun prezidenti, Rusiyanın Xalq artisti, dövlət mükafatı laureatı D.L.Matsuyevin imzası ilə Orxana Q.Qarayev adına Bakı Mərkəzi İncəsənət məktəbinin böyük zalında təntənəli şəkildə İ.N.Voronova adına "Yeni adlar" beynəlxalq fondunun mükafatlandırma təqaüdünün təyin edildiyini əks etdirən "Şəhadətnamə" və pul mükafatı təqdim edildi. 2015-ci ildə gənc musiqiçi rus klassik və xalq musiqisi, mahnı və rəqslərinin ən yaxşı ifası üzrə "Könül çeşmələri" adlı XI respublika baxış-müsabiqəsinin, həmçinin "Ü. Hacıbəylinin milli lad sistemi gənc ifaçıların tədris repertuarında" adlı I respublika festivalının laureatı olmuşdur.

O.Hüseynovun musiqi və yaradıcılıqla bağlı qazandığı bu uğurları bəzi humanitar təşkilatların da nəzərindən yayınmamış və o, 2010-cu ildə Bakıda hər il keçirilən "Gül" və "Kitab bayram"larında, Ü.Hacıbəyli adına Azərbaycan simfonik orkestrinin baş dirijoru R.Abdullayevin rəhbərliyi altında Bakı ş. UMİM şagirdlərinin birləşmiş orkestrində solist kimi aktiv iştirakına görə Bakı ş. İH, 2014-cü ilin may ayında musiqi sahəsində əldə etdiyi müvəffəqiyyətlərə görə Azərbaycan Respublikasının Ailə və Uşaq Problemləri Komitəsi və Azərbaycan Bəstəkarlar İttifaqı, 2014-cü ilin sentyabr ayında Rusiya Federasiyası Çelyabinsk şəhər Mədəniyyət İdarəsi və 2015-ci ilin iyun ayında Samara vilayətinin Mədəniyyət Nazirliyi tərəfindən Rusiyanın Xalq artisti Y.Başmetin rəhbərliyi altında fəaliyyət göstərən Uşaq Musiqi Akademiyasının V yubiley tədbirləri çərçivəsində keçirilən ustad dərslərində və yekun konsertdə mükəmməl çıxışına görə "Fəxri Fərman"la təltif edilmişdir. Gənc ifaçı Bakı ş. UMİM şagirdlərinin "Qönçə", Ü.Hacıbəyli adına V, VI və VII Beynəlxalq Rostropoviç festivallarında iştirak etmişdir. İfaçılıq səviyyəsini daim yüksəltməyə çalışan O.Hüseynov görkəmli violonçel ustalarından - fransız violonçel ifaçılarından Alen Mönye və Aleksandr Çidçavadze, yapon violonçel ifaçısı

Yuko Miyaqava, tanınmış Azərbaycan violonçel ustası E.İsgəndərov və P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının professoru A.Seleznevdan ustad dərsləri almışdır. Bütün yuxarıda qeyd edilən gənc musiqiçinin uğurları bilavasitə professor N.Abbaszadənin bacarıqlı, peşəkar, beynəlxalq musiqi standartları səviyyəsində olan sənət irsinin bariz nümunəsidir.

N.Abbaszadənin fəaliyyətinin ən vacib, bu günkü həyatının əsas məsələsinə çevrilən ifaçılıq fakültəsinin dekanı olmasıdır və bu fakültet üç ixtisas üzrə təhsil alan tələbələri birləşdirir: simli alətlər, nəfəs və zərb alətləri, solo oxuma. Onu da deməliyik ki, burada təhsil alan tələbələr yaş, sosial mühit, oxuduğu məktəb, bilik, bacarıq və s. məsələlər baxımından çox fərqlidirlər. Nəzmiyyə xanım bu mürəkkəb işin öhdəsindən əsl virtuozluqla gəlir. Bu gözəl sözün arxasında ciddi məna durur. Abbaszadə çevik düşünən və məntiqlə cavab verən insandır. Odur ki, hər məsələnin ortaya çıxmasında tez zaman daxilində onun həlli baş verir. Prinsipial əhəmiyyətli məsələlərin yaranmasında isə Nəzmiyyə xanım öz fikrini açıq ifadə etməyi bacarır. Bir sözlə peşəkar musiqiçi olan bu xanım musiqili-ictimai işdə də öz yaradıcı, daha doğrusu təşkilatçı imkanlarını inandırıcı şəkildə açmış olur.

N.Abbaszadənin ümumi fəaliyyətinin elmi-tədqiqat işlərini qeyd etmək istərdik. Burada da onun təhsil prosesi bilavasitə əldə olunan nailiyyətləri də vardır. İlk növbədə 2009-cu ildə nəşr olunan "violonçel məktəbi" adlı dərs vəsaitini göstərmək lazımdır. Kitabın yaranma tarixi var və onun barəsində danışmağa dəyər. Məsələ ondadır ki, bu müntəxabatın üzərində uzun illər işləyən Sabir Əliyev olub. Amma onun ölümü ilə bağlı iş sona çatdırılmamışdır. N.Abbaszadə müəlliminin əlyazmaları əsasında olduqca əhəmiyyətli olan dərs vəsaitini bitirir və öz müəlliminin başladığı işi sona çatdırır. Tədris prosesində bu cür ədəbiyyatın nə dərəcədə faydalı və əhəmiyyətli olması aktual problemin həlli kimi çox mühüm əhəmiyyət kəsb edirdi.

Professor N.Abbaszadə dərslikdə tədris-texnoloji, metodik göstərişlər, bədii materiallardan, müasir pedaqoqikanın təcrübəsi və müəllifin şəxsi müşahidələrindən geniş və səmərəli istifadə etmişdir: Məsələn, ifaçının oturuşu, alətin vəziyyəti və yayın idarə edilməsi ilə əlaqədar olaraq sağ əlin quruluş vəziyyəti və yayın bir simdən o biri simə keçid səlistliyinə, sol əlin qoyuluşuna, elementar musiqi nəzəriyyəsinə, sadə ştrixlərə, hər iki əllə eyni zamanda çalmaq üçün məşğələlərə, simmetriyalı və simmetriyasız ştrixlərə, qammalara, arpedcioalara, intervallara, pozisiyalara və pozisiyaların keyfiyyətlə dəyişməsinə, cəldiyin inkişafı və möhkəmlənməsinə, intonasiyanın təmizliyi və dəqiqliyinə, barmaqların geniş vəziyyətinə, yayın yuxarı hissəsi ilə ifa zamanı ritmin dəqiqliyinə diqqət yetirilməsinə, birinci notu vurğulayaraq onaltılıq notların biləyin hərəkəti ilə ifa etməsinə, yayın uzunluğunun düzgün bölüşdürülməsinə və ştrixlərin dəyişməsi ilə sol əl barmaqlarının hərəkətinin uzlaşmasına xüsusi fikir vermək tövsiyyə edilir.

Bununla yanaşı N.Abbaszadənin bir çox metodik tövsiyyələri və birbaşa ifaçılıqla bağlı olan "violonçel incəsənəti tarixi" (XVII-XIX) və "orkestr sinfi" ixtisas fənni üçün dərs vəsaitlərini, kvartet üçün Q.Qarayevin "Don Kixot" simfonik qravürlərindən və "İldırımlı yollarla" baletindən fraqmentlərin köçürmələrini qeyd etmək olar. Bu işlər tədris prosesinin daha səmərəli istiqamətə yönəlməsinə xidmət edir, tələbələrin bədii zövqün formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Çünki, dünya və Azərbaycan musiqisinin ən gözəl nümunələri ilə təmasda olmaq, şübhəsiz ki, olduqca vacib, təqdirəlayiq və məqsədyönlüdür.

**SONUÇ**

Bütün yuxarıda deyilənlərə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, ifaçılıq incəsənətinin bütün incəliklərinə bələd olan peşəkar mütəxəssis kimi N.Abbaszadənin kvartet musiqisinə həsr olunmuş metodik tövsiyyələri və solo ifaçılığına aid olan dərs vəsaitləri böyük əhəmiyyət kəsb edərək milli violonçel sənətinin təkmilləşərək tərəqqisinə təkan vermişdir. Yazılan bu metodik işlərdə mətn, bəstəkar və onun əsəri haqqında çox maraqlı məlumatlar yer alır. İfaçılara aid olan xüsusi xırdalıqlara diqqət yetirilir. Vurğulmaq istərdik ki, musiqişünaslar tərəfindən təhlil olunan əsərlərlə yanaşı, burada hələ təhlil olunmayan əsərlərə də rast gəlinir. Buna bariz misal olaraq müəllifin X.Mirzəzadənin "kvartet musiqisi" adlı metodik tövsiyyəsini qeyd edə bilərik. Nəzmiyyə xanım Abbaszadənin həmkarları, ifaçılıq fakültəsinin professor, müəllim və tələbələrdən ibarən heyəti ona çox dəyər verərək qiymətləndirir. Şərqin ilk violonçel xanım ifaçısı və ilk qadın simli kvartetin təşəbbüskarı və solisti professor N.Abbaszadə milli ifaçılıq incəsənətinin parlaq nümayəndəsi kimi klassik musiqi tariximizə daxil edilmişdir.

**KAYNAKLAR**

1. N.Abbaszadənin şəxsi arxiv materialları.
2. Əliyev S. Violonçel məktəbi. İbtidai siniflər üçün dərslik. Tərtibatçı: N.Abbaszadə. Bakı 2009.
3. Həsənova L. İlk azərbaycanlı-xanım violonçel ifaçısı. Qobustan jurnalı 4.2006.
4. Nemətli Y. Şərqin ilk qadın simli kvarteti. Musiqi dünyası jurnalı 1-2/31 2007.